**НАЦИОНАЛЬНАЯ АКАДЕМИЯ НАУК АЗЕРБАЙДЖАНА**
**ИНСТИТУТ ФИЛОСОФИИ И ПРАВА**

*На правах рукописи*

**ГЮЛЬДАНА ФАТИ КЫЗЫ БАБАЕВА**

# РОЛЬ ПОЛИТИЧЕСКИХ СВЯЗЕЙ В РАЗВИТИИ ОТНОШЕНИЙ МЕЖДУ АЗЕРБАЙДЖАНОМ И ТЮРКОЯЗЫЧНЫМИ ГОСУДАРСТВАМИ

Специальность: 5908.01 –Теория политики

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание учёной степени
доктора философии по политическим наукам

**Баку - 2014**

**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**FƏLSƏFƏ VƏ HÜQUQ İNSTİTUTU**

*Əlyazması hüququnda*

**GÜLDANƏ FƏTİ QIZI BABAYEVA**

# AZƏRBAYCANIN TÜRKDİLLİ DÖVLƏTLƏRLƏ MÜNASİBƏTLƏRİNİN İNKİŞAFINDA SİYASİ ƏLAQƏLƏRİN ROLU

İxtisas: 5908.01 – Siyasi nəzəriyyə

Siyasi elmlər üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı - 2014**

Dissertasiya işi AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunun «Politologiya və Siyasi Sosiologiya» şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** Fəlsəfə üzrə elmlər doktoru, professor
**Əlikrəm Mirhəsən oğlu Tağıyev**

**Rəsmi opponentlər** Fəlsəfə üzrə elmlər doktoru, professor
**Əlisa İsa oğlu Əhmədov**

Siyasi elmlər üzrə fəlsəfə doktoru
**Fuad İlyas oğlu Babayev**

**Aparıcı təşkilat:** **Azərbaycan Dillər Universiteti**

Müdafiə «_24____»__10_________2014-ci il saat_______da Azərbaycan Milli Elmlər Akademiyasi Fəlsəfə və Hüquq Institutunun nəzdindəki fəlsəfə üzrə elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.01.115 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Az 1143, Bakı şəhəri, H.Cavid prospekti 115. AMEA Fəlsəfə və Hüquq İnstitutu, konfrans zalı.

Dissertasiya ilə Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasında tanış olmaq olar.
Avtoreferat «____»___________2014-ci ildə göndərilmişdir.

**Fəlsəfə və Hüquq**
**İnstitutunun nəzdindəki**
**D.01.115 Dissertasiya** fəlsəfə üzrə fəlsəfə doktoru
**Şurasının elmi katibi** **S.A.HƏSƏNOVA**

**G.F.BABAYEVA**

**The role of political ties in developing the relations of Azerbaijan with Turkic-speaking states**

## SUMMARY

The dissertation consists of the infroduction, two chapters, six paragraphs, conclusion, the list of literature and other sources used.

In the introduction an actuality of the theme has been substantiated, a degree of elaborating the problem has been studied, the purpose and tasks of the dissertation, scientific novelty, and practical importance have been defined, and theoretical-methodological foundations aprobation and structure of the thesis are shown.

Chapter I «Political ties between Azerbaijan Republic u Turkic-speaking states: history and contemporaneity» includes four paragraphs covering the issues related to the theoretical foundations of foreign policy of Azerbaijan Republic, its conception and principles, history of development and current condition of the Turkic-speaking states. In it there are also considered the questions of importance of the political ties of our country with Turkic-speaking states whithin the framework of the regional and international organizations.

In Chapter II «The influencinq faktors in developing the political relations of Azerbaijan Republic with Turkic-speaking states » the issues of necessity of creating the organization of the commonwealth of Turk-speaking states, estabbislishing the political and economic ties between Azerbaijan Republic and the Turkic-speaking states are studied.

In the conclusion of the thesis the research was summed up, the basic conclusions and propositions following from the carried out research work have been stated and generalized.



## I . DİSSERTASİYANIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı:** Müasir dünyanı əhatə etməkdə olan qloballaşma və inteqrasiya prosesləri beynəlxalq münasibətlərin forma və məzmununu dəyişir, sivilizasiyalararası dialoqu zərurətə çevirir, cəmiyyətin ümumi inkişafına daha dinamik xarakter verir. Bu tarixi mərhələnin özəllikləri türk dünyasının qarşısında yeni taleyüklü vəzifələr qoymuşdur. Türk dövlətləri arasında qarşılıqlı faydalanma və dostluq münasibətlərinin möhkəmləndirilməsi, beynəlxalq münasibətlərdə kəsərli söz sahibinə çevrilməsi təkcə müasir dövrün tələbi deyil, həm də beynəlxalq münasibətlər elminin, siyasi araşdırmaların tələbidir.

XX əsrin sonlarında Sovet imperiyasının süqutundan sonra türkdilli dövlətlər arasında əməkdaşlığın zəruri və səmərəli olmasını nəzərə alan Azərbaycan dövlətinin xarici siyasətinin əsas istiqamətlərindən biri də Türkiyə Cümhuriyyəti və Mərkəzi Asiyanın türkdilli respublikaları ilə siyasi münasibətlərin bərqərarı və inkişaf edilməsidir. Azərbaycanın suveren bir dövlət kimi Türkiyə Cümhuriyyəti tərəfindən ilk tanınması diqqətə layiq bir addım idi. Azərbaycan və digər türkdilli dövlətlərin öz suverenliklərini və müstəqilliklərini qoruması üçün lokal ittifaqlarda birləşməsi müasir dövrün tələbi və aktuallığıdır.

Bu siyasət Ümummilli lider Heydər Əliyev tərəfindən bərpa olundu və hal-hazirda da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Bu baxımdan, Azərbaycan Respublikası tərəfindən Türk Dövlət və Cəmiyyətlərinin Dostluq, Qardaşlıq və Əməkdaşlıq Qurultaylarının ənənəvi çağrılması Türkdilli ölkələr arasında dostluq münasibətlərinin inkişafı baxımından çox əhəmiyyətlidir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə ilk dəfə olaraq bu Qurultay 2007-ci ilin noyabr ayında Bakı şəhərində yüksək səviyyədə keçirildi.

Əlavə edək ki, vaxtı ilə Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürk də Azərbaycanla dostluq münasibətlərinin inkişafına ciddi əhəmiyyət verirdi .1921-1923-cü illərdə İbrahim Əbilov Türkiyədə Azərbaycan SSR-nın ilk səlahiyyətli nümayəndəsi idi.Türkiyənin Qars, Samsun, Trabzon şəhərlərində Azərbaycanin konsulluqları fəaliyyət göstərirdi.

Azərbaycan Respublikasının türkdilli dövlətlərlə siyasi münasibətləri iki istiqamətdə qurulur və həyata keçirilir.Birinci istiqamət-ikitərəfli münasibətlər formatında icra olunur. Bu istiqamətdə əlaqələr dövlət başçıları səviyyəsində rəsmi səfərlərin həyata keçirilməsi formasında və bu səfərlər əsnasında ikitərəfli münasibətlərin siyasi, iqtisadi və mədəni aspektləri ətrafında müfəssəl fikir mübadiləsi aparılır, dünyada baş verən hadisələrə

münasibət bildirilir, ikitərəfli əlaqələrin hüquqi bazasını təşkil edən sənədlər müzakirə edilir və imzalanır. Bu səfərlər və onların nəticələri türkdilli dövlətlər arasında münasibətlərin dinamikasına və səmərəli olmasına təsir göstərərək təkan verən amillərdən sayılır. Qeyd etmək lazımdır ki, dövlətlərarası əlaqələrin müxtəlif sahələrində problemlərin təzahür etməsi də təbii bir prosesdir. Belə problemlər baş qaldırdığıı təqdirdə dövlət başçılarının səfərləri zamanı onlar müzakirə edilərək tənzimlənir və ya həll olunur. Bu səfərlərin siyasi əhəmiyyətini nəzərə alaraq , türkdilli dövlət başçıları arasında rəsmi və qeyri-rəsmi səfərlərin keçirilməsi artıq ənənə şəklini alıb.

İkinci siyasi istiqamət isə çoxtərəfli diplomatiya çərçivəsində həyata keçirilir. Qeyd etmək lazımdır ki , bu istiqamət beynəlxalq münasibətlərdə son dövrlər ən çox istifadə olunan sayılır. Bu proses Türk Dünyasından da yan keçməmiş, türkdilli dövlətlər arasında əlaqələrin müxtəlif sahələrinin inkişafına təkan verən səmərəli bir vasitə kimi tez-tez istifadə olunmaqdadır. Bu baxımdan Azərbaycan və Mərkəzi Asiyanin türkdilli dövlətləri Birləşmiş Millətlər Təşkilatı, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, İslam Əməkdaşlıq Təşkilatı, Müstəqil Dövlətlər Birliyi, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, Parlamentlərarası İttifaq kimi beynəlxalq təşkilatların üzvü olmaqla bərabər, Avropa İttifaqı, NATO-nun "Sülh naminə tərəfdaşlıq" Proqramı, Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı və digər təşkilatlarla da fəal əməkdaşlıq edir. Azərbaycan Respublikası həmçinin GUAM regional qrupunun təsisçilərindən biridir.

Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsi ilə bağlı 5 Xəzəryanı ölkə-Azərbaycan, Rusiya, Qazaxıstan, Türkmənistan və İran dövlət başçıları səviyyəsində 3 Sammit keçirilib. 2014-cü ilin aprel ayında Moskva şəhərində bu ölkələrin Xarici İşlər Nazirləri görüşüblər. Prezidentlər səviyyəsində 4-cü Sammitin 2014-cü ilin sentyabrında Həştərxan şəhərində keçirilməsi nəzərdə tutulub. Mütəmadi olaraq bu görüşlər Xarici İşlər Nazirlərinin müavinləri səviyyəsində keçirilir. Türkmənistan və İran dövlətlərinin məsələnin həllinə qeyri-konstruktiv yanaşmaları üzün illərdən bəri Xəzər dənizinin hüquqi statusunun müəyyən olunmasına imkan vermir.

Avrasiya regional təşkilatlardan biri Türk Dövlətləri Birliyi (TDV) adlanan qurum hesab olunur. Bu qurum bölgənin Türkiyə və Azərbaycanla yanaşı, Qazaxıstan, Özbəkistan, Türkmənistan və Qırğızistan kimi türkdilli ölkələri öz tərkibində birləşdirir. TDB-nin təsis edilməsində Türkiyə Cümhuriyyəti xüsusi fəallıq göstərib.Türk Dövlətləri Birliyinin yarandığı 1992-ci ildən başlayaraq türkdilli dövlət başçıları səviyyəsində 10 Zirvə toplantısı keçirilib. Zirvə görüşlərində siyasi, iqtisadi, mədəniyyət, elm, ticarət, turizm,



**Г.Ф. БАБАЕВА**

## Роль политических связей в развитии отношений между Азербайджаном и тюркоязычными государствами

## РЕЗЮМЕ

Диссертация состоит из введения, двух глав, шести параграфов, заключения, списка использованной литературы и других источников.

Во введении обоснована актуальность темы, исследована степень разработанности проблемы, определены цель и задачи диссертации, научная новизна, практическая значимость, теоретико-методологические основы, апробация и структура диссертационной работы.

Первая глава «Теоретико-методологический подход к политическим связям между Азербайджанской Республикой и тюркоязычными государствами» состоит из четырех параграфов, посвященных осмыслению теоретических основ внешней политики Азербайджанской Республики, концептуальным принципам, истории развития и современному положению ее связей с тюркоязычными государствами. В ней также рассматриваются вопросы значимости политических и экономических связей нашей страны с тюркоязычными государствами в рамках региональных и международных организаций.

Во второй главе «Воздействующие факторы в развитии политических отношений Азербайджанской Республики с тюркоязычными государствами» исследуются вопросы необходимости создания Организации Содружества Тюркских Государств, расширению политико-экономических связей страны с тюркоязычными государствами.

В заключительной части диссертации подведены итоги исследования, обобщены и изложены основные выводы и положения, вытекающие из проведенной научной работы.

türk dünyasının ortaq ədəbi dili kimi seçilə bilər. Ölkəmizin coğrafi mövqeyi də dilimizin bu statusa malik olmasına haqq qazandırır.

Dissertasiyanın əsas məzmunu müəllifin çap etdirdiyi aşağıdakı məqalələrdə əks olunmuşdur:

**1. Azərbaycanın türkdilli dövlətlərlə siyasi əlaqələri beynəlxalq münasibətlərin mühüm tərkib hissəsi kimi** /AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu. "Sosial-siyasi problemlər" Elmi-nəzəri jurnal № 1(21), Bakı: 2009. s.257-263.

**2. Türkdilli dövlətlərin siyasi əlaqələrinin inkişafı və iri dövlətlərin maraqları** / AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu. **"**Elmi əsərlər" Elmi-nəzəri jurnal, № 1-2(13), Bakı: 2009. s.144-147.

**3. Türk dünyasını birləşdirən Böyük İpək Yolu** / Tarix və onun problemləri. Nəzəri, elmi, metodik jurnal. Bakı Dövlət Universitetinin 90 illik yubileyinə həsr olunmuş xüsusi buraxılış. № 3, Bakı: 2009. s.356-361.

**4. Совместная стратегия деятельности Азербайджанской и Тюркской диаспоры/**Журнал научных публикаций аспирантов и докторантов. №5, М.: Май 2009. с.50-51

**5. Dağlıq Qarabağ münaqişəsi və türkdilli dövlətlərin mövqeyi/** Qarabağ dünən, bu gün və sabah. 9-cu elmi-əməli konfransın materialları. Bakı: 2010. s.88-93.

**6. Beynəlxalq terrorizm, onun miqyası və qarşısının alınması istiqamətində türkdilli dövlətlərin əməkdaşlıq strategiyası** /AMEA Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu. "Elmi əsərlər" Beynəlxalq elmi-nəzəri jurnal, №1(14).Bakı: 2010. s.225-230.

**7. Türkçülük və turançılıq fəlsəfəsinin tədqiqinə dair/** AMEA "Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu", "Fəlsəfi Araşdırmalar" İctimai Birliyi. YUNESKO-nun təsis etdiyi "Dünya fəlsəfəsi kontekstində islam bölgəsi fəlsəfəsinin tədqiqi və tədrisinin problemləri" mövzusunda Beynəlxalq elmi-nəzəri seminarın məruzələri. Bakı: Təknur, 2010 s.218-227.

**8. Проблема Объединения Тюркоязычных Стран./**Национальный Педагогичный Университет им.М.П.Драгоманова, Украинская Академия Наук. Научное издание. Сборник научных работ. "Гилея: научный вестник". Выпуск 71(№ 4), Киев: 2013. стр. 893-898.

**9. Проблемы в отношениях между Азербайджаном и Туркменистаном и перспективы развития.** /Вектор науки Тольяттинского ГосударственногоУниверситета.Серия: Юридические науки. №2(17) . Тольятти : 2014. стр. 19-21.



kommunikasiya və s.sahələrdə əməkdaşlıq əlaqələrini daha intensivləşdirmək yolları nəzərdən keçirilmişdir.

Fransa, Almaniya və Böyük Britaniya Türk Dövlətləri Birliyini Avropa Birliyinə, Rusiya Federasiyası isə bu birliyi Müstəqil Dövlətlər Birliyinə alternativ bir qurum kimi qəbul edirlər.

Zirvə toplantılarında Dağlıq Qagabağla bağlı BMT Təhlükəsizlik Şurasının Ermənistan-Azərbaycan münaqişəsi haqqinda müvafiq Qətnaməni dəstəklədiklərini bildirmiş və onların yerinə yetirilməsinin vacibliyini vurğulamışdılar. 1992-ci ildə türkdilli dövlətlərin Mədəniyyət Nazirlərinin toplantısında "TÜRKSOY" təşkilatı yaradılmışdır. Sonralar Rusiya Federasiyasına daxil olan Tatarıstan və Başqırdıstan Respublikaları, Tuva və Xakasiya, Şimali Kipr Türk Cümhuriyyəti də "TÜRKSOY" təşkilatına daxil olublar. "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyi, "Manas" eposunun 1000 illiyi, Məhəmməd Füzulinin 500 illiyi, yeni qazax yazılı ədəbiyyatının banisi Abay Kunanbayevin 150 illiyi, Əmir Teymurun 660 illik yubileyləri, Qazaxıstanın yeni paytaxtı Astana şəhərinin açılışı "TÜRKSOY" Fondu tərəfindən keçirilmiş tədbirlərdəndir.

2008-ci ildə İstanbul şəhərində türkdilli ölkələrin Parlament Assambleyası, 2011-ci ildə Almatıda Əməkdaşlıq Şurası yaradılmışdır.

Azərbaycan digər türkdilli dövlərlərlə iqtisadı layihələrdə və onların həyata keçməsində fəal iştirak edib.Buna misal olaraq "Əsrin müqaviləsi", TACİS-TRASİKA (Avropa-Qafqaz-Asiya nəqliyyat koridoru) Proqramı çərçivəsində həyata keçirilən "Böyük İpək yolu", Baki-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Ərzurum qaz kəməri, "NABUKKO" qaz kəməri, İNOGATE ( Avropaya dövlətlərarası neft və qaz ixracı ), 2015-ci ilin əvvəllərində istifadəyə veriləcək Bakı-Axalkalaki-Qars dəmir yolu layihələrini göstərmək olar. 2014-cü il sentyabrın 20-də TANAP (Trans-Anadolu Projesi) layihəsi çərçivəsində Bakı şəhərində Cənubi Qafqaz qaz kəməri dəhlizinin təməlqoyma mərasimi keçirildi.

**Mövzunun işlənmə dərəcəsi:** XX əsrdə dünyanın siyasi mənzərəsi ilə paralel olaraq elmimizdə də ciddi dəyişikliklərin baş verməsi prosesi gücləndirildi. Dünyanın siyasi xəritəsində tez-tez baş verən dəyişikliklər, beynəlxalq hüququn və münasibətlərin yeni norma və qaydalarının işlənməsi türkdilli dövlətlər arasında siyasi əməkdaşlıq mövzusunu gündəmə gətirdi. Problemin elmi-analitik tədqiqat işlərinə keçidi Azərbaycan siyasi elmində türkdilli dövlətlərlə əməkdaşlıq istiqamətlərinin təhlilinə şərait yaratdı.

1991-ci ildən etibarən yeni müstəqillik qazanmış türkdilli dövlətlərin beynəlxalq arenaya çıxmasından sonra Azərbaycanda bu mövzuda elmi məqalələr, monoqrafiyalar, beynəlxalq sənədlər, müqavilələr, razılaşmalar

tədqiq etdiyimiz problemin öyrənilməsinə münbit şərait yaratmışdır. Dissertasiyada 1991-ci ildən başlayaraq 20 ildən artıq dövr tədqiq edilmişdir.

Türkdilli dövlətlər arasında Birliyin yaranması və Azərbaycanın bu dövlətlərlə siyasi əlaqələrinin qurulması, əməkdaşlığın istiqamətləri və bu kimi məsələlər ölkəmizin tanınmış ictimai-siyasi dövlət xadimləri və tədqiqatçıları sayılan H.Əliyev, İ.Əliyev, A.Abbasbəyli, A.Abbasov, C.Cahangirli, N.Cəfərov, H.Əlibəyli Ə.Həsənov, M.Qasılmlı, S.Qəndilov, R.Mehdiyev, N.Məmmədli, Y.Rüstəmov, R.Qarayev, S.Ruintən İ.Vəliyev[1] və digərlərinin kitab və məqalələrində mövzu barədə ətraflı məlumatlar verilmişdir. Bu alimlərin və ictimai-siyasi xadimlərin tədqiqat işlərindən dissertasiya üzərində işləyərkən faktoloji mənbə kimi istifadə olunmuşdur.

Bu baxımdan diqqəti çəkən tədqiqatlardan biri də akademik R. Mehdiyevin «Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti»[73, s.9-10] monoqrafiyasıdır. Müəllif tədqiqatında qeyd edir ki, «müstəqilliyin əldə edilməsi ölkəmizin qarşısında diktaturadan demokratiyaya, komanda iqtisadiyyatından sərbəst bazar iqtisadiyyatına, iki əsrlik işğalçılıq tarixi olan imperiyanın bir hissəsindən milli dövlətə çevrilmək vəzifəsini qoydu.

[1] Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. Bakı, "Azərnəşr", 1997-2011. 1-33-cü cildlər.; Алиев И.Г. «Я верю в мой Азербайджан». Москва. ООО «Бослен» 2007 г.350 стр.; Abbasbəyli A, Atmaca T. Müasir dövrdə Azərbaycan və Türkiyə münasibətləri. // Dirçəliş – XXI əsr, 1998. № 10.; Cəfərov N. Türk Dünyasının birliyi strategiyası: Heydər Əliyevdən İlham Əliyevə. Dirçəliş – XXI əsr, 2004 (aprel-may), № 4-5 (74-75); Həsənov Ə. Azərbaycan Respublikasının Milli İnkişaf və Təhlükəsizlik siyasəti. Bakı, . "LETTERPRESS" Nəşriyyat evi. 2011, 437s.; Hüseynova İ. Heydər Əliyev və Qafqazda sülh prosesi.. Bakı, "Çaşıoğlu" nəş., 2008. 672s.; Mehdiyev R. Gələcəyin strategiyasını müəyyənləşdirərkən: modernləşmə xətti. Bakı. "Şərq-Qərb" nəşr.. 2008. 215 s.; Məmmədli N. Türkdilli dövlətlər beynəlxalq münasibətlər sistemində // Dirçəliş – XXI əsr. Bakı. Azərbaycan Dövlət Quruculuğu və Beynəlxalq Münasibətlər İnstitutu.. 2006. № 8-9 (102-103) 427 s.; Ruintən S.. Azərbaycan Türk dövlətləri ilə siyasi əlaqələr sistemində. XX əsrin 90-cı illəri. Bakı, Adiloğlu, 2005. 212 s.; Rüstəmov Y. Türk fikir tarixi haqqında mülahizələr / elmi red. N.Q.Cəfərov; AMEA Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutu, Azərbaycanda Atatürk Mərkəzi.-Bakı: Çaşıoğlu, 2005. 137 s.; Алибейли Г.Дж.. Иран и сопредельные страны Востока. 1946-1978 г. Москва, Издательство "Наука", Главная редакция восточной литературы, 1989, 254 с.; Qarayev R.M. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasında beynəlxalq təşkilatların qərarlarının əhəmiyyəti və beynəlxalq hüquq. Bakı, "Təknur" nəşr. 2012 . 343 s.



tanınması, Şimali Kiprin beynəlxalq təcriddən çıxarılması, İraq, Çin və Əfqanıstanda yaşayan türkdillilərin haqlarının tanınması, Ahıska türklərinin öz tarixi torpaqlarına qayıdışı və digər problemlər öz müsbət həllini tapa bilər.

Müstəqillik qazandıqdan sonra Azərbaycan Respublikası xarici ölkələrlə iqtisadi əlaqələr prosesində fəal və uğurla iştirak edir. Məlum olduğu kimi ölkəmiz xarici-iqtisadi əlaqələri idxal-ixrac, investisiya qoyuluşu, elmi-texniki əməkdaşlıq, birgə və birbaşa müəssisələrin təşkili və fəaliyyəti, işçi qüvvəsinin miqrasiyası, valyuta-maliyyə əlaqələrinin təkmilləşdirilməsi, turizm, azad-ticarət zonalarının yaradılması və bu mürəkkəb prosesləri dövlət tənzimləyərək həyata keçirir.

Respublikanın dünyada xarici-iqtisadi əlaqələr sistemində miqyası ilbəil genişlənir və burada xarici ticarət forması aparıcı rol oynayır. Azərbaycan Respublikasına Türkiyə və Mərkəzi Asiyanın türkdilli dövlətlərilə iqtisadi əlaqələrinin yüksəldilməsi problemini həll etmək üçün ölkəmizin açıq bazar iqtisadiyyatının yüksək səmərəli modeli işlənməli, respublikanın iqtisadi təhlükəsizliyi təmin edilməli; ixracat inkişaf etdirilməli, onun quruluşu və bazası möhkəmləndirilməli; idxalın strukturu tələbə uyğun olaraq təkmilləşdirilməli; manatın dönərliliyinin təmin edilməsi zəruriliyi ön plana keçirilməli; xarici investisiyaların cəlb edilməsi siyasəti iqtisadi baxımdan optimal dəyişikliklərə ugramalı; xarici ölkələrlə əlaqələrimizi səmərəli qurmaqla yanaşı bu vacib prosesin uzunmüddətli xarakterə malik olması təmin edilməlidir.

Dissertasiyanın «**Nəticə**» hissəsində tədqiqat prosesində irəli sürülmüş elmi mülahizələr ümumiləşdirilmişdir. Müəllif burada öz təkliflərin də irəli sürür:

• qloballaşma prosesinə aparan yol regional inteqrasiyadan keçir. Türkdilli dövlətlər arasında inteqrasiya öz növbəsində regional xarakterli olmaqla, qloballaşma prosesinin mühüm tərkib hissəsi kimi çıxış etdiyindən qanunauyğun mahiyyət daşıyır.

• İqtisadi əlaqələrdə ikitərəfli əməkdaşlığın xüsusi yeri saxlanılmaqla yanaşı, tərəflərdən hər birinin maraqlarına maksimum uyğun gələn, qarşılıqlı güzəştlərə və faydalanma prinsipinə əsaslanan çoxtərəfli birgə layihələrin hazırlanması və həyata keçirilməsi prioritet təşkil etməlidir.

• ictimaiyyətlə əlaqələr genişləndirilməli, həmçinin elmi əməkdaşlığa əsaslanan əlaqələr daha da intensivləşdirilməlidir.

• Türkdilli ölkələr arasında əlaqələrin inkişaf etdirilməsində turizm öz növbəsində əhəmiyyətli rol oynaya bilər.

• Türk Dünyasının təşəkkül taparaq formalaşmasına önəmli təsir göstərən amillərdən biri də ortaq ədəbi türk dilinin qəbul olunmasıdır. Zəngin lüğət fondu, axıcılığına və rəvan tələffüz keyfiyyətlərinə görə azərbaycan dili

Qeyd edildiyi kimi Türk Dövlətləri Birliyi qurumunun yaradılmasında və fəaliyyətinin davamlı olmasında fəal rol oynayan Türkiyə Cümhuriyyətinin bu sahədə xidmətlərini yüksək qiymətləndirən Heydər Əliyev demişdir: «…1992-ci ildən başlayaraq, Türkiyə Cümhuriyyəti… türkdilli dövlətləri yaxınlaşdırmaq baxımından öz üzərinə düşən missiyanı şərəflə yerinə yetirir. Türk Dövlətləri Birliyinə qatılmış hər bir ölkə bərabərhüquqludur, ancaq Türkiyə bu birliyin daha da güclü olmasını, daha da inkişaf etməsini təmin edən ən qabaqcıl ölkədir» .

Türkdilli dövlətlərin bir İttifaqda birləşməsi zamanın tələbidir və belə bir addım Türkiyə Cümhuriyyətinin təşəbbüsü ilə 1992-ci il oktyabrın 30-31-i tarixlərində Ankarada atıldı. Ankarada Türkiyənin, Azərbaycanın, Qazaxıstanın, Özbəkistanın, Qırğızıstanın və Türkmənistanın dövlət başçılarının iştirakı ilə Türk Dövlətləri Birliyinin yaradılması elan olundu. Toplantıda Birliyin Nizamnaməsi qəbul olundu. 2012-ci ildə Birliyin yaradılmasından 20 il ötüb və bu vaxt ərzində türkdilli dövlət başçıları səviyyəsində on sammit keçirilmişdir.

Ümummilli lider Heydər Əliyev türk dövlətlərinin, ümumən Türk Dünyasının birliyinə heç zaman sadəcə etnik köklərin ümumiliyinə əsaslanan mədəni-etnik birlik kimi baxmaqla kifayətlənməmiş, bu birliyin siyasi perspektivlərinə xüsusi diqqət yetirmişdir. Ona görə də, Heydər Əliyev Azərbaycanla, eləcə də digər türk dövlətləri ilə Rusiya arasındakı iqtisadi, siyasi, mədəni münasibətlərin inkişafına, qarşılıqlı əlaqələrin intensivliyinə həmişə önəm vermiş, Rusiya ərazisində yaşayan türkdilli xalqların milli özünüdərk və özünümüdafiə imkanlarının genişlənməsinə Türk Dünyasının yüksəliş strategiyasının tərkib hissəsi kimi baxmışdır.

İkinci fəslin ikinci yarımfəsli "Azərbaycan Respublikasının Türkdilli dövlətlərlə münasibətlərinin əsas istiqamətləri: problemlər və onların həlli yolları" adlanır.

Müasir beynəlxalq münasibətlərdə türkdilli dövlətlərarası əməkdaşlığın perspektivlərini nəzərdən keçirərkən əsasən onlar arasındakı münasibətlərin bugünkü səviyyəsini araşdıraraq gələcək inkişaf templərini proqnozlaşdırmaq mümkündür. Bütün qeyd etdiyimiz tədbirlər dövlətlərarası əlaqələrin inkişaf etməsinə birbaşa və dolayası olaraq öz müsbət təsirini göstərəcəkdir. Bu gün məlumdur ki, türkdilli dövlətlərin içərisində yalnız Azərbaycan müharibə şəraitindədir. Torpaqlarımızın 20%-dən çoxunun işğal altında olması, erməni terrorunun davam etməsi, 1 milyondan çox qaçqın və məcburi köçkünlərin öz doğma yurdlarından didərgin düşməsi Türk Dünyasının ümumi problemidir. Bütün güclər səfərbər edilsə, onda Azərbaycan torpaqlarının erməni işğalından azad edilməsi, terrorçu PKK təşkilatının tam süquta uğraması, Cənubi Azərbaycandan olan soydaşlarımızın ana dilində təhsil almaq hüququnun



Ötən əsrin 90-cı illərinin ortalarında Heydər Əliyev Azərbaycanda müstəqil dövlət yaradılması və dövlətçiliyin möhkəmləndirilməsi, idarəetmə proseslərinin mərkəzləşdirilməsi və milli iqtisadiyyatın durğunluq prosesinin dayandırılması məqsədi daşıyan sosial-siyasi və iqtisadi dəyişikliklər həyata keçirməyə başladı.

Beynəlxalq münasibətlər sahəsində türk dünyasının böyük öndərləri Mustafa Kamal Atatürk və Heydər Əliyev «ölkədə sülh, dünyada sülh» prinsipinə əsaslanırdılar. Azərbaycan və Türkiyə Heydər Əliyev və Mustafa Kamal Atatürk ideyalarından kənara çıxmamalıdır».

Türkdilli dövlətlər arasında əməkdaşlıq məsələsi professor Y.Rüstəmovun diqqətindən kənar qalmır. «Türk fikir tarixi haqqında mülahizələr» adlı monoqrafiyasında qeyd edir ki, Mərkəzi Asiyanın türkdilli dövlətlərində uğurlu dövlət idarəçilik sistemi həyata keçirilsə, Türk Dövlətləri Bilriyinə nail olmaq olar. Türk dünyasında ideoloji işlər aparılsa, milli kimlik məsələləri qaldırılsa, birlik yolunda uğurlara nail olmaq olar.

Professor Ə.Həsənov «Müasir beynəlxalq münasibətlər və Azərbaycan Respublikasının xarici siyasəti» adlı moqnoqrafiyasında 1993-cü ilin yayından başlayaraq Türkiyə və Mərkəzi Asiyanın türk dövlətləri ilə münasibətdə də ölkəmizin xarici siyasət kursunda ciddi dəyişikliklər edilməsini yazır və qeyd edir ki, «Azərbaycanin Türkiyə və Mərkəzi Asiyanın türk dövlətləri ilə münasibətlərində keyfiyyətcə yeni bir mərhələ başlandı. Doğrudan da 1993-cü ildən bu günə qədər Türkiyə Azərbaycanın ən etibarlı siyasi müttəfiqi, bərabərhüquqlu iqtisadi tərəf müqabilidir»

S.Ruintən «Azərbaycan türk dövlətləri ilə siyasi əlaqələr sistemində» adlı kitabında göstərir ki, türk xalqları uzun müddət bir-birindən aralı düşmüş, heç bir mədəni-mənəvi ünsiyyətləri olmamış, yalnız rus dili vasitəsilə ünsiyyət yarada biliblər. Daha sonra tədqiqatçı yazır: «Müstəqillik illərində Azərbaycanın Mərkəzi Asiyanın türk dövlətləri və Türkiyə ilə siyasi əlaqələri tarixi rəngarəngliyi ilə seçilir - hər bir dövlətlə siyasi əlaqələr özünəməxsusluğu ilə diqqəti cəlb edir. Bəhs olunan dövrdə Mərkəzi Asiyanın türk dövlətlərindən yalnız Qazaxıstan ilə əlaqələrimiz nisbətən sabit inkişaf yolu keçmişdir. Digər türk dövlətləri olan Qırğızıstan, Özbəkistan və Türkmənistanla münasibətlərdə Azərbaycan Respublikası vaxtaşırı müəyyən problemlərlə qarşılaşmış, bəzən bu problemlər zaman keçdikdən sonra aradan qaldırılmış (Özbəkistanla, Qırğızıstanla olan narazılıqlar), bəzən isə həlli mümkün olmayan problem səviyyəsinə çatmışdır (Xəzərin hüquqi statusu məsələsində Türkmənistanla mövcud olan narazılıq)».

Türkiyə Respublikasında Türk Birliyi məsələsinin tədqiq edilməsi bir əsrlik dövrü əhatə edir. Türk tədqiqatçılarının əsərlərində Türkdilli dövlətlər

arasında birliyin yaranması tarixi köklərə bağlanılır və onlar müasir Dünya Nizamında bu birliyin yaranmasını zəruri hesab edirlər. Aslan Betul, Çeçen Anıl, O.Kemal, Kemal Karpat, Küsoğlu Nevzat, Mehmet Saray[1] və başqalarının əsərləri Türkdilli dövlətlər arasında əməkdaşlıq və birlik məsələlərinə həsr edilib.

Tanınmış türk tarixçisi M.Saray «Yeni türk cümhuriyyətləri tarixi» adlı kitabında yazır: Avrasiya məkanında önəmli geosiyasi mövqeyi və sosial, iqtisadi, siyasi inkişafına görə böyük gücü olan Türkiyədə turançılıq ideyası tarixən güclü olub. Hələ böyük Atatürkün xarici siyasətində «Sovetlər Birliyində olan dili, inancı bir qardaşlarımıza sahib çıxmaq və bütünləşmək» – fikirləri müasir Türkiyənin xarici siyasətinin prioritet istiqamətlərindən biridir. 1980-ci ildən etibarən sosial-iqtisadi və siyasi-mədəni inkişafda uğurlar əldə edən Türkiyə xarici siyasətində türkdilli dövlətlərlə əlaqəli yeni strateji xətlər cızıldı. Azərbaycan, Mərkəzi Asiya və Rusiya Federasiyasına daxil olan türk respublikaları ilə hərtərəfli əlaqələri 1991-ci ildən sonra inkişaf etdirməyə başlayan Türkiyə üçün bu siyasət yeni imkanlar açdı..[2]

K.Nevzat, «Türk dünyası tarixi və türk mədəniyyəti düşüncələri» adlı kitabında Türkiyənin Mərkəzi Asiya bazarı uğrunda rəqabətdə Çinə güzəştə getməsi, Türkdilli dövlətlər üçün vahid sosial, siyasi və mədəni bazis hazırlanmaması, onların xarici aləmə çıxmasında passivlik göstərilməsi, birgə fəaliyyətin təmin edilməməsi və s. kimi nöqsanların baş qaldırması bu ölkələrlə münasibətlərin qurulmasında boşluq yaranmasına şərait yarandığını göstərir. Əvvəlki geosiyasi mövqeyi və nüfuzu əldə etmək üçün Türkiyə rəsmiləri mütləq psixoloji, nəzəri və təşkilati hazırlıq əsasında digər amillərlə yanaşı, əmək resursları, təbii ehtiyatlar nəzərə alınmaqla, düzgün xarici siyasi kursu seçərək həyata keçirməlidir.[3]

---

[1] Aslan Betul. Türkiye - Azerbaycan ilişkileri ve İbrahim Ebilov (1920-1923). İstanbul, Kaynak Yayınları, 2004, 360 s.; Çeçen Anıl, Tarihte Türk Devletleri, İstanbul, 1986. 186s.; Kemal O. Dunyada turk cumhuriyyetleri, turk halkları. İmal yayınevi, Ankara, 2002. 106 s; Kemal Karpat, «Turkiye diş siyaseti», International Journal of Turkish Studies, vol. 6, nos. 1-2 (Winter 1992-94) 89 s.; Küsoğlu Nevzat. Türk Dünyası Tarihi ve Türk Medeniyyeti Üzerine Düşünceler. İstanbul, Kaynak Yayınları, 1990. 298 s.; Mehmet Saray. Yeni türk cümhiriyyetleri tarixi Ankara.Türk Tarih Kurumu Basmaevi. , 1996. 439 s.

[2] Saray M. Yeni türk cümhuriyetleri tarihi. Ankara.Türk Tarih Kurumu Basmaevi, 1996. s.56-75.

[3] Küsoğlu Nevzat. Türk Dünyası Tarihi ve Türk Medeniyyeti Üzerine Düşünceler. İstanbul, Kaynak Yayınları, 1990. s.196-205.



və dövlət müstəqilliyinin möhkəmləndirilməsinə kömək etmişdir. Eyni zamanda qarşılıqlı əlaqələr beynəlxalq parlament təşkilatlarının coğrafiyasını genişləndirmiş, onların təsir dairəsinin yayıldığı əraziləri artırmış və fəaliyyətlərinin məzmunca zənginləşməsinə kömək etmişdir. 2013-cü ildə Türk Parlament Assambleyasının yaranmasının 5 ili tamam oldu.

**Dissertasiyanın ikinci fəsli ”Azərbaycan Respublikası ilə Türkdilli Dövlətlər arasında münasibətlərin inkişafına təsir edən amillər” adlanır**. Bu fəsil öz növbəsində iki yarımfəsildən ibarətdir. İkinci fəslin birinci yarımfəsli “Müasir dövrdə Türk Dövlətləri Birliyinin yaranma zərurəti” adlanır.

Böyük bir məkanı əhatə edən və təbii-iqtisadi göstəricilərinə görə dünyanın siyasi xəritəsində güclü mövqeyə malik olan Türk Dövlətləri Birliyinin yaradılması Avropa, Amerika və Asiyanın aparıcı qüvvələrinin bura daxil olan dövlətləri və əraziləri istismar etməsində güclü əngəllər yarada bilər.

Fransa, Almaniya və Böyük Britaniya Türk Dövlətləri Birliyini Avropa Birliyinə alternativ bir qurum kimi qəbul edirlər.Onların fikrincə, bu Türkiyə-Qərb əlaqələrinin zəifləməsi və Türkiyənin daha çox şərq yönlü xarici siyasət yürütməsilə nəticələnəcəkdir. Bu isə Qərb dövlətlərinin geosiyasi mövqelərinin bölgədə xeyli zəifləməsi deməkdir. Türkiyənin qərb yönümlü xarici siyasi xəttinin məhdudlaşmasına imkan verməmək üçün Qərb ölkələri Türk Dövlətləri Birliyinin reallaşmasına əngəl törətmək üçün müxtəlif vasitələrdən istifadə edirlər. Həmin dövlətlərin bu cür siyasi xətt yeritmələrini şərtləndirən əsas amillər Avrasiya məkanında Rusiya, İran və Çin təsiri sırasına Türk Birliyi faktorunun da əlavə olunmasının qarşısını almaq, islam-türk təsirinin güclənməsinə yol verməmək, Azərbaycan və Mərkəzi Asiyanın təbii sərvətləri üzərində nəzarət rıçaqlarını əldə möhkəm saxlamaqdır. Bu sıraya Qərbin dünya hegemonluğu ideyasının tam gerçəkləşməsi ilə bağlı planlar da əlavə olunmalıdır.

Türk Dünyasını kataklizmlərdən hifz etmək üçün türkdilli ölkələr arasında qarşılıqlı fayda prinsipinə söykənməklə həm çoxtərəfli diplomatiya çərçivəsində, həm də ikitərəfli əlaqələr formatında münasibətlərin qurulması və inkişafı türkdilli dövlətlərin xarici siyasətlərinin prioritet istiqaməti olmalıdır.

Müasir dövrdə dünya hegemonluğu uğrunda böyük güclər arasında gedən açıq və qapalı mübarizənin kəskinləşdiyi şəraitdə, Türk Dövlətləri Birliyini və bu təşkilat xəttilə türkdilli ölkələr arasındakı işgüzar əlaqələri davamlı şəkildə gücləndirmək zəruridir. Türk Dövlətləri Birliyi (TDB) beynəlxalq bir təşkilat kimi bitkin və daimi fəaliyyətdə olan struktura malik olmasa da, onun ali orqanı hesab olunan Zirvə toplantıları vaxtaşırı və planlı şəkildə çağırılır. Birliyin yaradılmasında əsas məqsəd türkdilli dövlətlər arasında həmrəyliyi möhkəmləndirmək, iqtisadiyyat, ticarət, ekologiya, elm, təhsil və mədəniyyət sahəsindəki əməkdaşlığı inkişaf etdirməkdir.

mülahizələrə görə, türk dövlətləri ilə əlaqələrin yaradılması və inkişaf etdirilməsi elə ilk dövrdən Azərbaycan Respublikasının xarici siyasət strategiyasının paritet (bərabərlik əsasında qurulmuş) istiqaməti kimi müəyyənləşdirildi və həyata keçirilməsi istiqamətində praktik addımlar atıldı.

Məlum olduğu kimi, Moskvada 1991-ci ilin 19-21 avqust dövlət çevrilişi cəhdindən sonra SSRI-ni təşkil edən müttəfiq respublikalar, o cümlədən də Türkdilli Respublikaları - 1991-ci ilin avqustun 31-də Qırğızıstan, 1991-ci il sentyabrın 1-də Özbəkistan, 1991-ci ilin oktyabrın 18-də Azərbaycan, 1991-ci ilin oktyabrın 25-də Qazaxıstan, 1991-ci ilin oktyabrın 27-də Türkmənistan bir-birinin ardınca öz müstəqilliklərini elan etməyə başladılar.

Yeni yaranmış türk dövlətləri həm dünyanın digər ölkələri və xalqları ilə, həm də öz aralarında müstəqil əlaqələr yaratmağa başladılar. Türkdilli dövlətlər arasında milli maraqlardan doğan təbii inteqrasiya prosesi get-gedə güclənməyə, böyük bir regionu əlverişli əməkdaşlıq məkanına çevirmək üçün zəmin yaratmağa təkan verdi. Artıq bu dövrdən etibarən Azərbaycan dövləti dünya birliyinin qəbul etdiyi normalardan irəli gələn və xalqımızın milli mənafelərinə uyğun prinsiplərə əsaslanaraq özünün xarici siyasətini qurmağa başladı. Bu dövrdən Dünya Birliyinin bərabərhüquqlu üzvü olan digər türk dövlətləri ilə ənənəvi tarixi əlaqələrin bərpa edilməsi və daha da genişləndirilməsi xarici siyasətimizin xüsusi aktuallıq kəsb edən məsələlərindən birinə çevrildi.

Birinci fəslin dördüncü yarımfəsli "Azərbaycan Respublikasının Türkdilli dövlətlərlə beynəlxalq və regional təşkilatlar çərçivəsində əməkdaşlığı"adlanır.

1991-ci ildə müstəqillik qazanmış beş yeni türk dövlətinin, o cümlədən Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətlərindən biri dünyada mühüm yer tutan beynəlxalq və regional xarakterli təşkilatlara daxil olmaq və onlar vasitəsilə iş aparmaq oldu. Həmçinin, artıq qeyd edildiyi kimi, Azərbaycanın türk dövlətləri ilə çoxtərəfli siyasi əlaqələri beynəlxalq və regional təşkilatlar çərçivəsində, xarici iqtisadi əlaqələr birgə layihələrin işlənib hazırlanması və həyata keçirilməsi formasında həyata keçirilir.

Azərbaycan, Türkiyə və Mərkəzi Asiyanın türkdilli dövlətləri BMT, Avropa Şurası, Avropa İttifaqı, Avropa Sosial Xartiysı, İslam Əməkdaşlıq Təşkilatında, NATO-nun "Sülh Naminə tərəfdaşlıq" Proqramı çərçivəsində, GUAM, QİƏT, ATƏT, MDB və İqtisadi Əməkdaşlıq Təşkilatında (EKO) əməkdaşlıq edir.

Ümumiyyətlə, tədqiq edilən illərdə Azərbaycan Respublikasının beynəlxalq parlament təşkilatları ilə əlaqələrinin qurulması və inkişafı daim yüksələn xətt üzrə getmişdir. Bu əlaqələr Azərbaycanın dünyada tanınmasına



Başqa bir türk tədqiqatçısı O.Kemal «Dünyada türk cümhuriyyətləri, türk xalqları» adlı kitabında qeyd edir ki, Avrasiya məkanında Rusiya, İran və Çin təsiri sırasına Türk Birliyi faktorunun da əlavə olunmasının qarşısını almaq, islam-türk təsirinin güclənməsinə yol verməmək məqsədi daşıdığı kimi, Azərbaycan və Mərkəzi Asiyanın təbii sərvətləri üzərində nəzarət rıçaqlarına da sahib olmaq deməkdir. Bu sıraya Qərbin dünya hegemonluğu ideyasının tam gerçəkləşməsi niyyətini də əlavə etmək mümkündür.[1]

Keçmiş SSRİ və müasir MDB məkanında da Türk Dövlətləri Birliyinin yaranması və onun regionda hansı rol oynayacağı bir çox alimlərin tədqiqat işlərindən olmuşdur. Xüsusilə Rusiya Elmlər Akademiyasının müvafiq institutları bu istiqamətdə çoxsaylı elmi-nəzəri araşdırmalar ortaya qoyublar.

V.Açkasov, S.Lantsov, Y.Bajanov, Y.Urazova, A.Protopopov, V.Kozmenko, N.Yelmanova, Q.Starçenkov, İ.Zonn,[2] və digərlərinin əsərlərində türkdilli dövlətlər arasında əməkdaşlığın tarixi-siyasi aspektləri tədqiq edilir.

Y.Bajanov «Beynəlxalq münasibətlərin aktual problemləri» kitabında göstərir ki, geosiyasi maraqların kəsişməsindən məharətlə istifadə edərək türk milləti arasında psixoloji-ideolji işləri fəal aparmaqla belə bir Birliyin yaranmasını reallığa çevirmək olar. Son zamanlar Avrasiya məkanında güclü dövlətlərin geosiyasi maraqlarının toqquşması Türk Dövlətləri Birliyi yaradılması ideyasının reallaşma imkanlarını artırıb. Bu səbəbdən də əhəmiyyətli geosiyasi dəyişikliklər yarada biləcək həmin Birliyin meydana gəlməsi şərtlərinə hər bir dövlət öz maraqları prizmasından yanaşır.

Y.Urazova «Türkiyənin və MDB-nin Türkdilli dövlətlərinin iqtisadi əməkdaşlığı» əsərində qeyd edir ki, sosializm sisteminin dağılması və kommunist ideologiyasının nüfuzdan düşməsi beynəlxalq münasibətlər siste-

---

[1] Kemal O. Dunyada turk cumhuriyyetleri , turk halkları. İmal yayın evi, Ankara, 2002, s.45-65.

[2] Ачкасов В.А., Ланцов С.А., «Мировая политика и международные отношения» Москва.Изд."Питер" 2007, 448с, Бажанов Е.П. Актуальные проблемы международных отношений. Избранные труды. В 3 томах. Том 1. Москва. Изд. "Научная книга": 2001, 464 с., Уразова Е.И.«Экономическое сотрудничество Турции и тюркских государств СНГ» (совместно с ИВ РАН). Москва. 2006, 321с., A.Protopopov, V.Kozmenko, N.Yelmanova «Beynəlxalq münasibətlər və Rüsiyanin xarici siyasət tarixi:1648-2005. Dərslik. Düzəliş və əlavələrlə II nəşri. Bakı: "Qanun" nəşriyyatı, 2009. 443 s. Старченков Г.И. Трубопроводный транспорт Турции вступает в новый этап. Современная Турция: проблемы и решения. Сборник статей. Москва., Издательство "Наука" 2006. 238 стр Зонн И.С., Каспийская энциклопедия. Москва., 2004, 273 с.

mində yeni mühüm faktora çevrilməyə qadir olan Türk Dövlətləri Birliyinin formalaşması Qərb ölkələri ilə yanaşı, Türkiyə, Rusiya, İran, Pakistan və Çinin milli maraqları ilə sıx bağlıdır.

Q.Starçenkovun «Türkiyənin borukəməri nəqliyyatı yeni mərhələyə qədəm qoyur. Müasir Türkiyə: problemlər və onların həlli yolları» məqalələr toplusunda türkdilli dövlətlər arasında birliyin olması bir sıra problemlərlə yanaşı dünya dövlətlərini narahat edən ən başlıca din amili olduğu vurğulanır. Məlumdur ki, türk xalqları islam dininin daşıyıcılarıdır və bu qloballaşma pərdəsi altında Qərbin xristian gücləri Asiya mədəniyyətini, onun komponentləri olan dilini, musiqisini, ideologiyasını «özününküləşdirir» və assimilyasiya edir. Mərkəz rolunda çıxış etmək istəyən Qərb ucqar rolunda gördüyü Asiyanı və bu qitədə böyük məkana və gücə malik olan türk xalqlarının ərazilərini, dövlətlərini nəzarətdən kənar buraxmamağa çalışır. Qloballaşma prosesində mərkəz aktiv müdaxiləçi və nəzarətçi, ucqar isə passiv müşahidəçi və təcrid olunan müxalifətçidir.

Qərb tədqiqatçılarının əsərlərində türkdilli dövlətlərin birliyi məsələsinə elmi-nəzəri yanaşmalar olub. Erik Roulo, Filip Robins, Uilyam Heyl[1] və digərləri öz əsərlərində Türk Dövlətləri Birliyi məsələsinə geniş yer veriblər.

E.Roulo «Türkiyəyə Çağırışlar» əsərində türkdilli dövlətlər arasında əməkdaşlığı müasir Dünya Nizamında önəmli addımlardan sayır. Türkiyə dövlətinin bu əməkdaşlıqda lider rolu ola biləcəyini qeyd edən müəllif Azərbaycan və digər ürkdilli dövlətlərin oxşar qurumlara rəqib olmasını hesab edir. Əsərdə həmçinin Türkiyənin Azərbaycanla siyasətində həm strateji maraqlar (NATO blokunun ümumi strateji maraqları), həm Türkiyənin öz milli mənafeləri, həm etnik (Qafqazda yaşayan türkdilli xalqların dəstəyini qazanmaq), həm dini amillər (regionda islam və xristianlıq missionerliyi ) özünü qabarıq şəkildə göstərmişdir.

U.Heyl «Türkiyə, Yaxın Şərq və Körfəz Böhranı» tədqiqat işində yazır ki, türkdilli dövlətlərin birliyinin, heç olmasa mənəvi vahidliyinin bərpası nəsillərin arzusu olub. Ancaq bu arzuların reallaşdırılması üçün müəyyən zəmin SSRİ-nin dağılmasından sonra yarandı. Əsrlər boyunca, bir-birindən ayrı düşmüş türkdilli xalqlar, nəhayət, XX əsrin sonu- XXI əsrin əvvəllərində yaxınlaşmaq, yenidən əlaqələr qurmaq imkanı qazandılar. Müasir dövrün ən

[1]Eric Rouleau, ‘The Challenges to Turkey’, Foreign Affairs, Vol.72, No.5, November/December 1993.;pp 110-126; Robins Philip. ‘Turkish Foreign Policy since 2002: between a ‘post-Islamist’ government and a Kemalist state’, in: International Affairs, vol. 83:1, 2007, pp. 289-304; William Hale, «Turkey, the Middle East and the Gulf Crisis», International Affairs, Vol.68, No.4, October 1992.pp.679-692.



qəbul olunmazdır, çünki bu zaman o biri dövlətlər dəniz sektorundakı öz paylarınlı İranla bölməlidirlər.

Müəllif sonda bu qənaətə gəlir ki, bütün bu və digər məqamlarla yanaşı bu gün Azərbaycan xarici siyasətini balanslaşdırılmış, müstəqil xarici siyasəti ilə milli maraqlarını təmin edən bir dövlət kimi dünya tərəfindən tanınır. Şübhəsiz ki, ölkəmiz bu uğuru Ulu Öndər Heydər Əliyevin və onun siyasi varisi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cənablarının böyük müdrikliklə müəyyən etdikləri xarici siyasət konsepsiyası hesabına qazanmışdır.

Dissertasiyanın birinci fəslinin ikinci yarımfəslində “Türkdilli dövlətlərin inkişaf tarixi və müasir dövr” tədqiq edilir. Bu paraqrafda qədim tarixə, zəngin mədəniyyətə və çoxəsrlik dövlətçilik təcrübəsinə malik türk xalqları bəşər sivilizasiyasının inkişafında, müasir dünyada sülhün və təhlükəsizliyin təmin olunmasında fəal rol oynaması tədqiq edilir. Türk xalqlarının minilliklər ərzində formalaşmış zəngin mədəni irsi dünya mədəniyyət xəzinəsinə əvəzsiz töhfələr vermiş, insanlığın təkamül tarixində xüsusi yerə malik olmuşdur.

Türkdilli ölkələr arasında mədəni intqerasiya siyasi və iqtisadi inteqrasiya ilə müqayisədə çox yüksək səviyyədə həyata keçirilir. Dünyanın siyasi xəritəsində yeni türk dövlətlərinin yaranması siyasi, iqtisadi münasibətlərlə yanaşı, mədəni əlaqələri də intensivləşdirdi. Daha çox nailiyyətin məhz mədəniyyət və incəsənət sferasında əldə olunması təsadüfi deyil. Dili, dini, tarixi kökləri, adət-ənənələri bir olan xalqların qarşılıqlı münasibətləri uzun müddət əngəllənsə də, yeni mərhələdə bu tendensiya dərhal aradan qalxdı. Müstəqilliyin ilk illərində yeni yaranmış türk dövlətlərinin bir-biri ilə münasibətlərində obyektiv və subyektiv amillərdən qaynaqlanan ehtiyatlılıq hiss olunurdusa, bu, mədəniyyət əlaqələrinin dirçəlişinə şamil edilməməlidir. Təbii istəkdən irəli gələn mədəniyyətlərin yaxınlaşması, ümumtürk dəyərinin yenidən dirçəldilməsi, sovet təhsil sisteminin müasir standartlarla yeniləşməsi, müstəqil dövlətlərin yeni ixtisaslı kadrlara malik olması nəticəsində bütöv Türk Dünyasının yeni coğrafiyası formalaşdı.

Birinci fəslin üçüncü yarımfəsli “Azərbaycanın türkdilli dövlətlərlə siyasi əlaqələri beynəlxalq münasibətlərin mühüm tərkib hissəsi kimi” adlanır.

Məlum həqiqətdir ki, dövlət maraqları heç də həmişə sabit qalmır, tarixi reallıqlar və beynəlxalq vəziyyət dəyişdikcə onun məzmunu və mahiyyəti də dəyişikliyə məruz qalır, yeni tələblərə uyğunlaşır. Lakin dövlət maraqlarının uzunmüddətli əsasları da vardır ki, bunlar digər xalqlar və dövlətlərlə əsrlər boyu qərarlaşmış münasibətlərdən, milli təhlükəsizliyin ənənəvi elementlərindən ibarətdir. Bütün bunlar Azərbaycanın dünya ilə çoxçalarlı, çoxkeyfiyyətli mənafe və maraqlarının tam bir strukturunu yaradır. Məhz bu

## II. İŞİN ƏSAS MƏZMUNU

**Girişdə** dissertasiya mövzusunun aktuallığı əsaslandırılmış, problemlərin işlənmə dərəcəsi araşdırılmış, tədqiqatın məqsəd və vəzifələri, elmi yeniliyi, praktiki əhəmiyyəti, nəzəri-metodoloci əsasları, aprobasiyası və quruluşu müəyyənləşdirilmişdir.

**Dissertasiyanın birinci fəsli "Azərbaycan Respublikası ilə türkdilli dövlətlər arasinda siyasi əlaqələrə nəzəri-metodoloji baxış"** adlanır. Bu fəsil öz növbəsində dörd yarımfəsildən ibarətdir**.** Birinci yarımfəsil "Azərbaycan Respublikasının xarici siyasətinin nəzəri əsasları: xarici siyasət prinsipləri" adlanır. Bu yarımfəsildə qeyd olunur ki, xarici siyasət digər dövlətlərin davranışına təsir göstərmək və ya öz davranışını beynəlxalq aləmə uyğunlaşdırmaq üçün dövlətin həyata keçirdiyi fəaliyyətlər sistemidir. Xarici siyasətin başlıca məqsədi milli maraqların müdafiəsidir. Xarici siyasətin həyata keçirilməsinin bir çox vasitələri mövcuddur ki, onların içərisində ən əhəmiyyətlisi diplomatiyadır.

Bütün dövlətlərin ən çox əhəmiyyət verdiyi, milli marağın əsas istiqamətlərindən biri milli təhlükəsizlik məsələsidir. Bu da öz növbəsində xarici siyasət strategiyasını müəyyən edir. Dövlətin milli təhlükəsizlik siyasəti başqa dövlətlərin də təhlükəsizliyinə dair marağını nəzərə almalıdır.Milli təhlükəsizlik ölkənin xarici siyasətinin məqsədidir.

Bu yarımfəsildə müstəqil Azərbaycan dövlətinin xarici siyasəti özünəməxsus xüsusiyyətləri ilə də seçildiyi vurğulanır. Siyasi sahədə Azərbaycan dövlətinin xarici siyasətinin əsas mahiyyəti beynəlxalq hüququn normaları və prinsipləri ilə tənzimlənən sivil dövlətlərarası münasibətlərə hörmət bəsləməkdən, beynəlxalq, regional və dövlətlərarası münaqişələri sülh və danışıqlar yolu ilə həll etməkdən, bütün dövlətlərin suveren hüquqlarına hörmətlə yanaşmasına toxunulur. Eyni zamanda iqtisadi sahədə qarşılıqlı-faydalı əməkdaşlıq etməkdən, iqtisadi maraqların uzlaşdırılmasından, qarşılıqlı təminat mexanizminin yaradılmasından və onun qorunmasından bəhs edilir.

Azərbaycan xarici siyasətinin əsas problemlərindən biri də Xəzərin hüquqi statusunun müəyyən olunmasıdır. Ümumiyyətlə, Xəzər problemi dövlətlər arasında nüfuz bölgüsü məsələsidir və bu problem keçmişdə yalnız Rusiya ilə İran arasında danışıqların obyekti olmuşdur. Hazırda isə bu məsələ beş Xəzəryanı dövlət arasında müzakirə obyektinə çevrilmişdir. Bu gün Azərbaycan, Rüsiya və Qazaxıstan Xəzər dənizinin dibinin milli sektorlara bölünməsi kursunu dəstəkləyirlər. Lakin İran bununla razı deyil və Xəzər dənizinin Xəzərətrafı ölkələrin hər birinə 20% verilməsini təklif edir. Bu isə



başlıca xüsusiyyəti çox geniş spektrdə qloballaşmadır. Siyasi, iqtisadi, hərbi, daha böyük mənada ümummədəni səviyyədə qloballaşma gedir və harada yaşamasından asılı olmayaraq türk xalqları da bu prosesdən kənarda qala bilməzlər.

Təqdim olunmuş dissertasiyada Azərbaycanın türkdilli dövlətlərlə münasibətlərinin inkişafında siyasi əlaqələr beynəlxalq münasibətlərin mühüm tərkib hissəsi kimi çıxış edir və eyni zamanda dövlətlərarası münasibətlərin genişlənməsi və inkişafında siyasi əlaqələr bir növ fundament rolunu oynayır.

**Tədqiqatın mənbə bazası:** Mövzunun işlənməsi prosesində Azərbaycan Respublikasının və beynəlxalq hüququn normaları və aktları, Ümummilli lider Heydər Əliyevin çıxış və nitqləri, statistik göstəricilər elmi -nəzəri mənbə rolunu oynamışdır.

Azərbaycanın xarici siyasətində türkdilli dövlətlərlə əməkdaşlıq strategiyasına dair XİN rəsmi məlumatları, Azərbaycan Respublikasında, Mərkəzi Asiyanın Türk dövlətlərində, MDB, Türkiyə və digər ölkələrdə nəşr edilən rəsmi kitablar, Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamları, türkdilli dövlətlərin Zirvə Toplantılarının materialları, Azərbaycan və Türk diaspor təşkilatlarının Qurultay sənədləri, dövrü mətbuatda dərc olunmuş rəsmi məlumat və sənədlər dissertasiyanın yazılması prosesində mənbə kimi istifadə olunmuşdur.

**Tədqiqatın məqsəd və vəzifələri:** Dissertasiya işinin əsas məqsədi Azərbaycanın türkdilli dövlətlərlə münasibətlərinin inkişafında siyasi əlaqələrin rolunu tədqiq etməkdir. Türkdilli dövlətlər arasında siyasi əlaqələrin tarixini və müasir durumunun araşdırılması, Azərbaycanın xarici siyasətində türkdilli dövlətlərlə münasibətlərində tutduğu mövqe, Ulu Öndər Heydər Əliyevin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin əməkdaşlığa verdiyi önəm, keçirdiyi görüşlər, Azərbaycanın türkdilli dövlətlərlə qarşılıqlı əməkdaşlıq prosesində meydana çıxan problemləri təhlil etmək və digər məsələlər dissertasiyanın məqsədlərinə daxildir. Bu məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr müəyyən edilmişdir:

- Azərbaycanın türkdilli dövlətlərlə siyasi əlaqələri prosesinin elmi-nəzəri əsaslarını və xarici siyasət prinsiplərini müəyyən etmək;
- Türk Dövlətləri Birliyi məkanında vahid iqtisadi birliyə nail olmağın zəruriliyini əsaslandırmaq;
- Türkdilli dövlətlərin inkişaf tarixinin əsas mərhələlərini tədqiq etmək və müasir durumu araşdırmaq;

-Azərbaycan Respublikasının türkdilli dövlətlərlə münasibətlərinin ikitərəfli istiqamətdə və çoxtərəfli diplomatiya çərçivəsində dinamikasını tədqiq etmək;

-Türkdilli dövlətlər arasında siyasi münasibətlərin inkişafına mane olan daxili və xarici amilləri müəyyən etmək və bu əngəllərin aradan qaldırılması ilə bağlı tövsiyyə və təkliflər irəli sürmək.

**Tədqiqatın predmeti və obyekti:** Azərbaycanın türkdilli dövlətlərlə siyasi əlaqələri, türkdilli dövlətlərin inkişaf tarixi, müasir beynəlxalq münasibətlərdə türk dövlətləri arasında əməkdaşlığın gələcək perspektivlərinin dissertasiya çərçivəsində araşdırılması tədqiqat işinin predmetini və obyektini təşkil edir.

**Dissertasiya işinin nəzəri-metodoloji əsasları:** Tədqiqat işinin metodoloji əsasını tarix, ədəbiyyat və ilk mənbələrdən istifadə olunmuş faktlara tənqidi yanaşma prinsipi, eləcə də tarixi-müqayisəli metod təşkil edir. Dissertasiyanın yazilmasında tarixilik, hadisələrə obyektiv yanaşma əsas meyar olaraq qəbul olunmuşdur. Dissertasiyada tədqiqat metodu kimi həm sistemli analiz, həm də müqayisəli-siyasi təhlil metodlarından istifadə olunmuşdur. Mənbələrdən istifadə edərək induktiv (xüsusi mülahizələrdən ümumi nəticə çıxarmaq üsulu], ikitərəfli münasibətlərin problemləri araşdırılarkən isə deduktiv (düşüncə prosesində ümumidən xüsusiyə getmə üsulu) metodlardan istifadə olunub.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti:** Dissertasiyanın materiallarından Azərbaycanın türkdilli dövlətlərlə siyasi əlaqələrinə həsr edilən tədqiqat işlərinin, monoqrafiya və dərsliklərin yazılmasında, ali məktəblərdə tədris prosesində, xarici siyasət və beynəlxalq əlaqələrlə məşğul olan dövlət strukturlarının praktik fəaliyyətlərində istifadə oluna bilər.

**Tədqiqatın elmi yeniliyi:** Azərbaycanın türkdilli dövlətlərlə münasibətlərinin inkişafında siyasi əlaqələrin rolu indiyə kimi dissertasiya çərçivəsində tədqiq olunmamışdır. Dissertasiya işinin elmi yeniliyini aşağıdakı kimi xülasə etmək olar:

- Azərbaycanın siyasətşünaslıq elmində bu mövzu ilk mənbələr əsasında təhlil olunur, onun mahiyyəti, məqsəd və vəzifələri, fəaliyyət istiqamətləri araşdırılır;
- Problem siyasi və hüquqi kontekstdə təhlil edilərək obyektiv elmi-siyasi ümumiləşdirmələr aparılır;
- Türkdilli dövlətlər arasında siyasi əlaqələrin tarixi inkişafı və müasir durumu yeni faktlar əsasında araşdırılır;
- Azərbaycanın türkdilli dövlətlərlə çoxtərəfli siyasi əlaqələri və beynəlxalq münasibətlər sistemindəki rolu analiz edilir;



- Yeni dünya nizamında Türk Dövlətləri Birliyinin yaranma zərurəti və iri dövlətlərin siyasi maraqları təhlil edilir;
- Azərbaycan Respublikasının türkdilli dövlətlər arasında əməkdaşlığın iqtisadi əlaqələrinin müasir vəziyyəti və gələcək inkişaf istiqamətləri müəyyən olunur;
- siyasi münasibətlərin dinamikasında qarşılıqlı faydalanma prinsipinə söykənən iqtisadi əlaqələrin rolu təhlil olunur.

**Dissertasiya işinin aprobasiyası**: Dissertasiya AMEA-nın Fəlsəfə və Hüquq İnstitutunun (keçmiş Fəlsəfə, Sosiologiya və Hüquq İnstitutu) «Politologiya və siyasi sosiologiya» və «Beynəlxalq münasibətlər və beynəlxalq huquq» şöbələrinin birgə iclasında müzakirə və ekspertiza edilmiş, müdafiəyə tövsiyə olunmuşdur. Dissertasiyada irəli sürülən əsas elmi müddəalar və nəticələr müəllifin ölkə daxilində və xaricdə çap etdirdiyi elmi məqalələrdə öz ifadəsini tapmışdır. Mövzunun ayrı-ayrı aspektləri ilə bağlı isə müxtəlif elmi-təcrübi konfrans və simpoziumlarda məruzələr edilmişdir.

**Dissertasiyanın quruluşu:** Tədqiqat işi giriş hissəsindən, altı yarımfəsildən ibarət iki fəsil, nəticə və istifadə edilmiş mənbələr və ədəbiyyat siyahısından ibarətdir.